

# “O ölməyib, yaşayır və yaşayacaq”

## Xalq artisti İlhamə Quliyeva son mənzilə yola salındı

**Fevralın 26-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında xalq artisti İlhamə Quliyeva ilə vida mərasimi keçirildi. Vida mərasimində xalq artistinin ailə üzvləri, yaxınları, sənət dostları və dövlət rəsmiləri iştirak edirdi.**



Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirdi ki, bu gün Xocalı faciəsinin baş verdiyi gündür: ”Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. İlhamə xanımı da o şəhidlərin sırasına qatıram. Çünki İlhamə xanımın dövlətimizə, vətənimizə göstərdiyi sevgi böyük idi. İlhamə Quliyeva istedad və zəhmətsevərliyi sayəsində musiqi sənətinin incəliklərindən bəhrələnmişdi. Müxtəlif illərdə o, Azərbaycan Dövlət Filarmoniyasında və 1960-cı ildən ömrünün sonuna qədər Azərbaycan Televiziya və Radiosunun, eləcə də Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının solisti idi. Yüksək istedadı, bənzərsiz ifa tərzi, musiqi duyumu və sənətə vurğunluğu ilə seçilən müğənni Azərbaycan bəstəkarlarından Fikrət Əmirov, Cahangir Cahangirov, Səid Rüstəmov, Ramiz Mirişlinin mahnılarının ilk və mahir ifaçısı idi. O, milli musiqi mədəniyyətimizi dünyanın 20-dən artıq ölkəsində təmsil edib. İlhamə Quliyeva Birləşmiş Millətlər Təşkilatının 2000-ci ildə Türkiyə, 2001-ci ildə Pekində keçirilən ”Dünya Qadınlar Forumunda” beynəlxalq sənətçi adına layiq görülüb. Musiqi sahəsindəki uğurlarına görə istedadlı müğənni 1982-ci ildə əməkdar artist, 1998-ci ildə Azərbaycanın, 2008-ci ildə isə Dağıstanın xalq artisti adlarına, 2002-ci ildə Şöhrət, 2012-ci ildə Şərəf ordeninə layiq görülüb”.

Daha sonra Faiq Sücəddinov, Canəli Əkbərov, Natəvan Şeyxova çıxış edərək sənətçi ilə bağlı xatirələrini bölüşdülər, ona Allahdan rəhmət dilədilər. Vida mərasimində iştirak edən Faiq Ağayev jurnalistlərə açıqlamasında İ.Quliyevanın ölümünə inanmadığını bildirdi: ”İlhamə xanımın sənətinin onu yaşadacağına əminəm. İlhamə xanım dünyasını dəyişməyə hazırlaşan insana oxşamırdı. Ölənəyinə də inanmırdım. Onun bizə gözəl mahnıları, sənəti qaldı. Allah rəhmət etsin. Ölümünə çox üzüldüm”.



Xalq artisti Zeynəb Xanlarova da vida mərasiminə qatılmışdı. O, ”Kaspi”yə açıqlamasında İlhamə Quliyeva ilə bağlı fikirlərini bildirdi: ”Allah rəhmət etsin. Nə qədər Azərbaycan var, mahnıları onu yaşadacaq. O ölməyib, yaşayır və yaşayacaq”.

Əməkdar artist Röya Ayxan İ.Quliyeva ilə bağlı xatirələrini ”Kaspi”yə açıqladı: ”Hər kəs bilir ki, mən İlhamə xanımı nə qədər çox istəyirdim. Ona Allahdan qəni-qəni rəhmət diləyirəm. Mən də onun kimi layiqli ölmək istərdim. Çünki o bir sənətkar olmaqdan əlavə, bizə dövlətimizi və millətimizi sevməyi də təbliğ etdi. Mən vətən sevgisini onda gördüm. Bu, böyük itkidir. Biz həmişə İlhamə xanımla onun mahnılarını lentə yazmağı fikirləşirdik. Lakin qismət olmadı. Söz verirəm ki, o mahnıları lentə yazıb sizə təqdim edəcəm. Ən sonuncu dəfə İlhamə xanımla danışanda mənə dedi ki, bütün tacları sənə verəcəm. O, çox pozitiv insan idi. Şəxsi məsələlərə gəldikdə isə, bu mənim üçün hər zaman ikinci plandadır. Mənim üçün onun sənəti önəmli idi”.

Müğənni Xatirə İslam da vida mərasiminə qatılanlar arasında idi: ”Artıq 17 ildir səhnədəyəm və bu 17 il ərzində bir çoxlarından fərqli olaraq, İlhamə xanım heç zaman mənim xətrimə dəyməyib. Əksinə, o həmişə mənə dəstək olub. Allah ona rəhmət etsin. O mənim xatirəmdə böyük insan kimi qalacaq. İki-üç gün bundan öncə bütün sənət dostlarımızla birgə bir tədbirdəydik, İlhamə xanım da iştirak edirdi. Yedik-içdik, hətta İlhamə xanım mahnı da ifa etdi. Mənə ölümü barədə məlumat veriləndə, inanmadım və şayiə hesab etdim. Nə bilim vallah, ruhu şad olsun”.

İlhamə Quliyevanın oğlu Orxan anasından danışdı və gələn qonaqlara öz təşəkkürünü bildirdi: ”Azərbaycan incəsənətinə böyük itki üz verdi. Allah rəhmət etsin, İlhamə xanıma. Mən bu gün valideynimi, arxamı, dayağımı itirmişəm. Bilirəm ki, əsas çətinlik hələ bundan sonra olacaq. Çünki İlhamə xanımın yoxluğu bundan sonra bilinəcək. Bu, taleyin bir hökmüdür, bununla barışmaq lazımdır. Edəcək bir şey yoxdur. Çünki ölüm hər kəsin başına gec-tez gələcək. Kimin alnına hara qədər ömür yazılıb, ora qədər də gedəcək.”

Xalq artistinin oğlu onun vəsiyyətindən də danışdı: ”Anamın dəfni islam adətənənəsinə uyğun olacaq. Çünki o, müsəlman idi və Kərbəla, Həcc, Məşədi ziyarətinə getmişdi. Digər məsələlərlə bağlı isə qeyd edim ki, bizim ailənin hüquqşünası var və bütün sənədlər, etibarnamələr, vəsiyyətnamələrin hamısı ondadır. Bundan sonra da bütün prosedurlara o, nəzarət edəcək. İlhamə xanımla son danışığımız fevralın 24-ü gecə saat 11-də oldu. Onun ölümü mənə də gözlənilməz idi. Anam həmişə mətbuata açıq insan olub. Çalışacağam ki, mən də onun yolunu davam etdirim. İlhamə xanım yeganə xanım müğənni olub ki, Heydər Əliyev tərəfindən diplomatik pasportla təltif olunub və bu gün dəfn olunana qədər diplomat statusu daşıyırdı”.

Qeyd edək ki, vida mərasimində bir çox mədəniyyət xadimləri, o cümlədən Aybəniz Haşımova, Firuzə İbadova, Cavanşir Məmmədov, Əli Mirəliyev, Mənsum İbrahimov, Arif Babayev, Gülyaz, Gülyanaq Məmmədova bacıları, Rəşad İlyasov, Emil Bədəlov, Elvin Abdullayev, Ruhi və başqaları iştirak edirdi.

Xalq artisti ilə vida mərasimi başa çatdıqdan sonra özünün ifa etdiyi ”Çıxıb gedirəm” mahnısının sədaları altında cənazə II Fəxri Xiyabana yola salındı və burada anası, xalq artisti Tükəzban İsmayılovanın yanında torpağa tapşırıldı.

Xatırladaq ki, İlhamə Quliyeva 1943-cü ildə Lənkəranda anadan olub. O, fevralın 25-də 73 yaşında dünyasını dəyişib.

**Şəbnəm MEHDİZADƏ**

---

## Xocalı soyqırımı milli musiqimiz vasitəsilə də dünyaya çatdırılır



**Fevralın 26-da Azərbaycan Bəstəkarlar İttifaqında Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.**

Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq Artisti, professor Firəngiz Əlizadə ”Xocalı mövzusu Azərbaycan və xarici bəstəkarların əsərlərində” mövzusunda məruzə ilə çıxış edib.

XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının xalqımıza və bəşəriyyətə qarşı törədilmiş cinayət olduğunu vurğulayan F.Əlizadə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bu soyqırımına siyasi-hüquqi qiymət verildiyini bir daha diqqətə çatdırıb.

F.Əlizadə qeyd edib ki, bu gün Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan ”Xocalıya ədalət!” beynəlxalq kampaniyasının əhəmiyyəti olduqca böyükdür. Bu istiqamətdə aparılan təbliğat sayəsində bir sıra dünya dövlətləri, o cümlədən ABŞ-ın 20-dək ştatı bu faciəni tanıyır.

Bəstəkarlar İttifaqının sədri qeyd edib ki, xalqımızın yaşadığı Xocalı soyqırımı milli musiqimiz vasitəsilə də dünyaya çatdırılır. Bu baxımdan ”Xocalı”, ”Xocalı laylası”, ”Xocalı uşaqlarına lay-lay”, ”Xocalı avazları”, ”Xocalı-613”, ”Xocalı naləsi” və başqa milli musiqi əsərləri dünyanın bir sıra ölkələrində ifa olunaraq müəyyən təbliğat vasitəsinə çevrilib.

Əməkdar incəsənət xadimləri Həcər Babayeva və Nərgiz Şəfiyeva ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri vəhşiliklərdən və xalqımızın yaşadığı soyqırımlarla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün həyata keçirilən işlərdən söz açıblar.

Çıxışlarda qeyd olunub ki, xalqımızın qan yaddaşı olan Xocalı faciəsinin bütün dünya dövlətləri tərəfindən tanınmasında hər bir təbliğat vasitəsindən istifadə olunmalıdır. Bu baxımdan mövzu ilə əlaqədar yaranan milli musiqi əsərləri böyük əhəmiyyət kəsb edir.

Daha sonra ”Xocalıya ədalət” simfonik plakatı, ”Vətən sənin şəhidlərin”, ”Çağırış”, ”Şəhidlər”, ”Həzilər yetirən vətən torpağı”, ”Ey dan ulduzu” adlı musiqi əsərləri səsləndirilib.